

# Xuramanım

*Şəhid ailələrini, qaziləri*
*təmənnasız müalicə edən*
*"Milan" Hospitalına, onun sahibi*
*Xuraman xanım Muradovaya*

**Müəllif: Xalq şairi Nəriman Həsənzadə**

Döyüşlərdə səngər -səngər həlak olan,
o pak olan şəhidlərim!
Sizdən bizə əmanətdi sizdən deyən qazilərim!
Hərəsi bir şerim -sözsm şah əsərim.
Tariximə yeni tarix yazanlarım!
Qarabağ partizanlarım!
Dəmir yumruq bayrağıdır bu millətin.
Harda qalxdı orda gördük üzünü haqq ədalətin.

O, Ali Baş Komandanın öz adıydı,öz imzası
O səngərdən başlayırdı Azərbaycan epoxası.
Siz ey şəhid anaları, bacılarım!
Gedənlərin töhfəsidir ağrılarım, acılarım.
Yaşa səni Xuramanım!

O qızların seçilib - sayılan qızı!
Ana cağır, sən ana de, oğul şəhid analara.
İndi oğul əvəzisən sən onlara
Sən ana de analara
Sən ana de analara...

Azad Azərbaycan.- 2022- ci il.- 3 noyabr.- S. 8.